**UOT 81 41; 801.7**
**https://doi.org/10.59849/2218-4783.2026.1.144**

# NAXÇIVANDA M.Ö. YAŞAMIŞ TURDİ PROTOTÜRKLƏRİ İLƏ BAĞLI MİF VƏ ETNOOYKONİMLƏR

# MYTHS AND ETHNO-OIKONYMS RELATED TO THE TURDI PROTO-TURKIS WHO LIVED IN NAKHCHIVAN BC

**Firudin RZAYEV***

Məqalədə m.ö. Naxçıvanda yaşamış Turdi türklərinin adı ilə bağlı oykonimlərdəki mifdən bəhs olunur. Naxçıvanla bağlı bu mövzu indiyədək alimlər tərəfindən araşdırılmamışdır. Bu prototürk adlarını daşıyan oykonimlərdəki dil elementləri və mif müxtəlif sözlük və mənbələrlə müqayisəli təhlil olunmuşdur. Bu istiqamətdə dil elementləri əski yazılı salnamələrə istinadən də təhlil olunmuşdur. Bu yazılardakı qədim türk sözləri ilə oykonimdəki sözlərin müqayisəsi yeni elmi nəticələr ortalığa çıxarır. Linqvistik təhlil zamanı Naxçıvan oykonimlərində ortalığa çıxan yazıyaqədərki dövr dil elementləri və mif antik yazılarda da təkrarlanır. Tarixi materialların hərtərəfli araşdırılması zamanı aydın olur ki, oykonimlər bu tayfaların adı və mifindən yaranıb. Turdi prototürkləri isə antik mənbələrə əsasən m.ö. IV-III minillikdə qədim Naxçıvan-Naxər ölkəsi ərazilərində yaşamışlar.

**Açar sözlər:** *Turdi, Turdetan, Tərətum, m.ö. minilliklər, etnooykonim, mif, dil elementləri.*

This article discusses the oikonyms and myths associated with the names of the Turdi Turkis who lived in Nakhchivan in the pre-Christian era. This topic has not previously been studied by scholars in relation to Nakhchivan. The linguistic elements and myths preserved in the oikonyms bearing these proto-Turkic names are analyzed comparatively using various dictionaries and sources. In this direction, linguistic elements are also analyzed with reference to ancient written chronicles. The comparison of the ancient Turkic words found in these writings with the words occurring in the oikonyms yields new scholarly findings. The linguistic analysis reveals that the pre-literate linguistic elements and myths emerging from Nakhchivan oikonyms are also reflected in ancient texts. A thorough examination of historical materials demonstrates that the oikonyms originated from the names and myths of these tribes. According to ancient sources, the Turdi proto-Turkis inhabited the territories of the ancient Nakhchivan-Nakher country in the $4^{th}$-$3^{rd}$ millennia BC.

**Keywords:** *Turdi, Turdetan, Taratum, millennia BC, ethno-oikonym, myth, linguistic elements.*

## GİRİŞ

Biz tarixi qaynaqlara diqqət etdikdə tayfa adlarının həm də mifoloji inanc daşıması ilə rastlaşırıq. Bildiyimiz kimi hər bir ailə bir yüz ildən sonra tayfaya çevrilir ki, bu tayfa inancındakı ad da özünü qoruyub saxlayır. Təkcə müasir ailə başçılarının adında biz Allahyar, Tanrıverdi, Xudakərim kimi adlarla rastlaşırıq ki, bir yüz ildən sonra bunlar "Allayar, Tanrıverdi, Xudakərim tayfaları" kimi el arasında yer alır.

Qədim qaynaqlarda tarixi kökü m.ö. VI-IV minilliyə dayanan, adı prototürk As boyları ilə yanaşı çəkilən Turdi türklərinin də qədim Naxçıvan torpağında aborigen-yerli sakinlər olması və mifi ilk dəfə sistemli tədqiq olunur. Azərbaycan xalqının etnogenezində turdilərin dili, tarixi, mifi və yeri geniş tədqiq edilməsə də, əski mənbələr bu tayfaların ərazisi, dili, türk tayfa ittifaqında yeri və s. haqqında ətraflı bilgi verir. Turdilərin bir türk tayfası olması və "turdi" sözünün mənasına nəzər salsaq, ad "Tur+ti" şəklində iki kökdən ibarətdir. Biz bu quruluşa istinadən həm tayfa adının,

* AMEA Naxçıvan Bölməsi, e-mail: firudinrzayev@gmail.com
ORCİD: 0009-0008-3291-791X

həm də mifoloji inancın "Tur" şəklində ada çevrildiyini görürük.

Biz qədim türklərdə di/ti – "tikmək" sözünün omonim kimi "möhkəm", "əbədi", "inadkar" mənalarından bəhs etdik [Древнетюркский словарь, 1969, s. 558, 565; Qeybullayev, 1994, s. 80]. "Tur" komponentinə qoşulan "möhkəm", "inadkar", "əbədi" sözləri təbii ki, bir tayfa adıdır. "Tur" sözü lüğətlərdə "tayfa, durmaq, qalxmaq", "toplanmaq" [Kaşğari, 1985, s. 20, 334; s. 28, 49; s. 180, 233], "tör" yazılışında isə "hörmətli", "müdrik başçı", "toplum", "möhkəm qala" mənalarında da izah olunur [Древнетюркский словарь, 1969, s. 580, 586; Kaşğari, 1985, s. 121; Сравнительный словарь тунгусо-маньчжурских языков, 1975, s. 248].

## TURDİLƏR TARİXİ MƏNBƏLƏRDƏ

Biz Herodotun yazılarına diqqət etdikdə o, Skif yurdunda Tiras çayı boyu Tirit və Ellin tayfalarının yaşadığını, ellinlərin "tirit" adlandığını yazır [Геродот, 1972, II, s. 43, 112, IV, s. 51]. Əgər diqqət etsək, "Tirit" adının türk mifindəki Tur+it – "it toplumu", "mötəbər qurdlar" kimi Qurd mifindən gəldiyini görürük. Əski türk bayraqlarında qurdbaşlı-itbaşlı rəsmlər də bunu sübut edir (F. R.).

Qaynaqlara diqqət etdikdə Strabon da öz əsərində Turdetaniya ölkəsini, İspaniyada İber ölkəsində, Turdi ölkəsinin sərhədlərini isə Taqa, Ana və Beti çayları arasında göstərir. O, Turdi adından Turdetaniya adının yarandığını, burada onların Turdetan, Turdul adlandığını qeyd edir. Strabon Turdetan İber dili və əhalisinin fərqli olduğunu, Turdetaniyada Tinqiy, Kalpı, Asti, Nabris, Ebur kimi tayfa, liman, şəhəri və keçid adlarını göstərir [Страбон, 1964, VI, s. 139, VIII, s. 139, IX, s. 141]. Burada Tanqay adı -nq qoşa samiti ilə Tanay, Dunay, Kalpi/Kolpi adı Kaspi, Subi, Tatabi, Kutur adı Utuqur (otuz oğuz) kimi yüzlərlə türk tayfa və şəxs adlarını və bu tayfaların mifoloji inancını təkrarlayır. Digər Asti – "Aslar tikən", Nabri – "qurdların verdiyi", Ebur – "Qurulu ev" sözləri də türk dilindədir. Bu isə ərazinin türklərə aidliyini təsdiq edir [Древнетюркский словарь, 1969, s. 558, 565; Qeybullayev, 1994, s. 80; Малый атлас мира, 1985, s. 242, 306]. Etimoloji izahlar tərəfimizdən ilk dəfə verilir və adların söz quruluşları Naxçıvan oykonimlərində Tinə, Tinas, Tinkan, Asti, Astap, Asay, Karpi kimi xeyli oykonimik adlarda eynilə təkrarlanır [İrəvan əyalətinin icmal dəftəri, 1996, s. 167, 172, 182].

Antik müəllif Tit Livi m.ö. IV-III əsr Roma tarixi ilə bağlı Turi boylarının və onların Turin şəhərinin adını çəkir [Ливий, 1989, s. 156-157]. Bu m.ö. I minillikdə Turdilərin qədim Azərbaycan ərazilərindən şimala yayıldıqlarını, ərazidə isə İberiya ölkəsinin yarandığını sübut edir. Ad İber yazılışında Subər, Xəzər, Kəngər və s. türk tayfa adının təkrarıdır və köklü türk ölkəsidir (F. R.). Ubar "Bilqamıs" dastanında həm də Utnapiştinin atasının adıdır [Oğuz & Tuncay, 2009, s. 191].

## TƏDQİQAT ƏSƏRLƏRİNDƏ TURDİ TÜRKLƏRİ

Biz A.Rahmeti və B.Tuxmeevin yazılarındakı "Qajusi çerigde qilic baldu jer, qajusi turada juluyda qarır" cümləsinə [Rahmeti, 1947, s. 84; Тухмеев, 2004, s. 83-86] türk sözlükləri əsasında yanaşdıqda, cümlə "Kimi qılıncını döyüş cərgəsində sınayır, kimi qalada qocalır" kimi tərcümə olunur və burada tura – "qala" mənasındadır. Bu nümunələrdə "tur", "tür" kökü "ti" sözü ilə "uca yaranışın qurduğu", "müdrik tikdiyi", "başçı tikən", "toplu tikən" mənalarını daşıyır. Türkiyə türklərində "törə", "Novruz Tura" bayramı adında "tura" sözü də tayfa mənalarını özündə əks etdirir. Bəs digər tədqiqatlarda bu tayfa haqqında nə yazılır?

C.Cəfərov Strabona, digər qaynaqlara istinadən m. ö. VI-IV minilliklərdə Turdetaniya adlı ölkədə Törtas – "Dörd As" Turdi tayfalarından, Dörd asların-turdilərin, m. ö. IV-III minilliklərdəki türklərin ulu babaları olub, iberlərdən daha sivil xalq kimi m. ö. VI minillikdə əlifbaya, qanunnamə və poeziyaya sahib olduqlarından bəhs edir. İ.Cəfərov iberlərin Tub el türk tayfa adından "iber"

kimi təhrif olunub Qafqazın ilk sakinlərindən biri olmaqla, İber ərazisinin türk yurdu olduğuna dair elmi faktlar göstərir [Cəfərov, 2005, s. 91-103].

Məlumatdan göründüyü kimi Turdetaniya Ön və Kiçik Asiyadan uzaqda İspaniya ərazisindədir və onlar "İber" deyil, "Turdetan" və "Turdil" adlanırlar. Bu faktlar isə Asər-Azərlərin 8 minillik əlifba, tarix və mədəniyyətini, şumerlərdən önə çəkməklə turdilərin As varisləri – bir türk boyu olduğunu bir daha sübut edir.

Bəs Turdi türklərinin m. ö. IV-III minilliklərdəki ərazisi harada idi? Əgər Qafqaz və İspaniyada m. ö. I minillikdə iki İberiy ölkəsi dünya xəritəsinə eyni vaxtda düşürsə [Морской атлас Министерства Обороны СССР, 1958, s. 2]. Turdi və "İberiya" əraziləri tarixi arasında 3 min il fərq varsa, o zaman Turdi türklərinin ana yurdu hansı İberiya olmuşdur?

Fikrimizcə, Bütöv Azərbaycan, hazırkı Türkiyə, hazırkı Orta Asiya ərazilərinə sahib olub Assuriya, Lidiya, Frakiya, Balkanlar, Misir ərazilərini nəzarətdə saxlayan As türklərinin varisi Türdi boyları da bu ərazilərdə Tir, Tiras, Tirodizə (Dizə?) Turi, Tirit, Tirrsen [Геродот, 1972, I, s. 105, 163; II, s. 42-44, 112, 136; IV, s. 51, 170; VII, s. 1224] kimi şəxs, tayfa, mifoloji inanc və əyalət adlarında öz izlərini qoymuşlar.

Mənbələr turdilərin aslarla m. ö. III minillikdə Kiçik Asiyadan Misirə gəlib yerləşdiyini, aslarla elladların qohumdilli olduğunu, bu ərazidə onların adı ilə Tirin şəhəri və qiksos-gök asların arasında turdilərin olduğunu göstərir [Всемирная история, 1956, s. 286, 411, 421]. Bu faktlar isə onların ana yurdunun m. ö. IV minillikdə "İber" dövləti tarixdə olmamışdan öncə Ön Asiya-qədim Azərbaycan olduğunu sübut edir. Aslar Ön Asiya xalqları, turdilər onların varisləri, Naxər boyları isə bu ərazinin yerli sakinləri idi. M.Maksimov Turdi türklərinə məxsus qızıl pulların yayım arealı, tarixini izləyərək türdilərin başqa ərazilərdən gəlib İspaniyanın cənubunu tutub buranı "Turdetaniya" adlandırdığını yazır [Максимов, 1977, s. 27, 33, 79].

F.Ağasıoğlu yazılarında Kavkazda Asturikan türk boylarının adını çəkir. Bu isə As və turdilərin eyniköklü olduğuna işarədir. Əgər **kan** – "kağan" sözlərinə istinad etsək, Asturkan ali türk qurumu olmuşdur. Biz m. ö. II minillikdə Fərat çayının yuxarı axarlarında Koman, kumıklarla yanaşı, şərqə tərəf Turqu (Dirqu) və Şubarların (Şubria) ərazi xəritəsini görürük [Всемирная история, 1956, s. 514-517]. Bütün bunlar m. ö. IV minillikdən Turdi-As birliyinin Ön və Kiçik Asiyanın yerli sakinləri olub, sonralar As, Kas, Subar, Koman, Şu və b. prototürklərlə şimala doğru yayıldığını, onların Turdetan İberiyasında m. ö. II-I minilliklərdə, Ana yurdda isə m. ö. IV-III minilliklərdən məskun olduğunu göstərir. Mənbələr iberlərin ilk tunc dövrü bu ərazilərə gəldiyini, m. ö. VI əsrdə burada Tur koloniyasının qaldığını yazır [Всемирная история, 1956, s. 468, 502].

Qədim dövrdən günümüzə Bütöv Azərbaycanda Turkanbur, Turjaçay, Turabad, Turəkun, Turut [Azərbaycan SSR-nin qısa toponimlər lüğəti, 1986, s. 94; Gültekin, 2001, s. 176-177; Иванов, 1952, s. 469; Rəcəbov, 1993, s. 146], ümumtürklərdə Turin, Tur, Turiy, Turka, Turan [Малый атлас мира, 1985, s. 30-33, 48, 57], qədimlərdə Azərbaycan torpaqları hesabına "İberiya" şəklində qaynaqlara düşən hazırkı Gürcüstana qatılan torpaqlarımızda Sia+tura, Çoxa+turi, Tur+nauz, Lay+turi, Tur+avi (sonralar Telavi), Ka+turi, Tur+uso, Tur+alat kimi yüzlərlə adlar [Малый атлас мира, 1985, s. 52-53; Советский союз Грузия, 1967, s. 35, 138, 237] Turdi boylarının izləri olub, ərazinin türklərə aidliyini göstərir. Naxçıvan ərazilərində Turdi türkləri ilə bağlı 9 məntəqə adının etimoloji izahları da dediklərimizi təsdiq etməklə bərabər, tərəfimizdən ilk dəfə verilir və bu tayfa, onlarla bağlı oykonimlər tədqiqatlarda yer almamışdır.

**Cantarlar.** 1590-cı ilin sənədlərində s≈c səsəvəzlənməsi ilə əhalisi azərbaycanlılardan ibarət olmaqla Naxçıvanın Karni nahiyəsində göstərilir [İrəvan əyalətinin icmal dəftəri, 1996, s. 163]. Ad Santar-"Şanlı Tur" mənasında həm mifoloji inancı, həm də San+tur quruluşunda adı daşımışdır ki, burada -lar şəkilçisi ada sonradan əlavə edilmişdir.

**Çomaqtur** (2 kənd). Bu məntəqə adı 1590-cı ilin sənədlərində Naxçıvanın Şərur nahiyəsində, sonrakı illərdə isə Yuxarı və Aşağı Comaqtur kimi iki kənd olaraq göstərilir, mənasının isə anlaşıl-

madığı bildirilir [İrəvan əyalətinin icmal dəftəri, 1996, s. 168, 154]. Lakin yuxarıda da qeyd etdik ki, ad təsviri izahla "Çomaq tutur" kimi izah olunmuşdur [İmanlı, 2011, s. 45, 47, 63, 87-89]. Təbii ki, bu izah bir kənd adına şamil oluna bilməz. Adda ilk Com/qam – şaman sözü [Древнетюркский словарь, 1969, s. 153] altay, başqırd, uyğur, çuvaş, və b. dillərdə "yemək", "müzakirə etmək", "nəfəs almaq" mənalarında da izah olunur [Севортян, 1974, s. 334]. Bu sözlərlə adın formalaşması qeyri-realdır. Türklərdə qam-şaman mifi, ayin və düşüncələri M.Seyidov və Abdulkadır İnan tərəfindən geniş tədqiq edilmişdir [Abdulkadr, 1972, s. 26, 33-34; Seyidov, 1983, s. 291-293]. Qam-şaman mifi ilə bağlı bu adlanma teoforik adlanma üsuludur. Məntəqə adındakı aq – "uca" sözü qədim türklərdə "akaş kökdəki tanqrilər" – "uca göylərdəki tanrılar" [Древнетюркский словарь, 1969, s. 31; Малов, 1954, s. 83] və Akasti "Günəş və Ay allahlarının dayandığı ucalıq" ifadələrində Tanrı ilə bağlıdır. Türklərin antroponimik mifik adlar sistemində Harbak-"uca Harbe" elam və kaslarda Harve, Harbe tanrı adları, Ak Baş kimi adlar [Дьяконов, 1990, s. 134; Rəcəbov, 1993, s. 383] ucalığın izləri idi. Etnooykonim "Uca Tur şamanı" mənasında mifik inanc və tayfa adından formalaşmışdır.

**Tir.** Tayfa adından u≈i səsəvəzlənməsi ilə yaranan bu ad 1728-ci ildə bir adı da "Dir" olmaqla Naxçıvan qəzasının Maku nahiyəsində qeydə alınır [İrəvan əyalətinin icmal dəftəri, 1996, s. 42].

**Ternevit.** Maraqlı semantik mənaya malik bu ad, 1727-ci ildə Naxçıvanın Sürməli nahiyəsində göstərilməklə Tur tayfa adı, ne/ni- "verdi", "mükafatlandırdı", eləcə də vit/bat- "ölkə, yurd" sözləri ilə "Turların verdiyi yurd" mənasında izah olunur [İrəvan əyalətinin icmal dəftəri, 1996, s. 63].

**Tərcanlı**. Naxçıvanın İrəvan nahiyəsində 1590-cı ildə qeydə alınan bu ad [İrəvan əyalətinin icmal dəftəri, 1996, s. 163], sonrakı sənədlərdə göstərilmir. Tayfa adı, can/san – "şan-şöhrət" türk sözləri ilə bu ad "Şanlı turdi" mənasındadır. Ada -lı şəkilçisi sonradan artırılmışdır.

**Tərətum.** Bu ad da Naxçıvan qəzasının Dərələyəz nahiyəsində 1727-ci ildə qeydə alınır [22, s. 35]. Tərkib etibarı ilə bu adın "at" fərqi Tər+at+um istisna olunmaqla Turub adı ilə eyni mənadadır. Buradakı at – "yer, məkan", "şöhrət" [Древнетюркский словарь, 1969, s. 65; Севортян, 1974, s. 284] qədim türk sözləri adı "Şöhrətli tur evi" kimi mənalandırır.

**Tərli.** Tur tayfa adı və **il** – "bölgə", "yurd" əski türk sözlərindən "Tur yurdu" mənasında izah olunan bu ad Naxçıvanın Sürməli nahiyəsində 1727-ci ildə qeydə alınır [İrəvan əyalətinin icmal dəftəri, 1996, s. 65]. Adda l=i səs və hərflərin yerdəyişməsi-metateza (vağzal-vazğal, kimi) hadisəsi baş vermiş, ad Təril yazılışından Tərli şəklində təhrif olunmuşdur.

**Turub.** Bu ada 1724-1727-ci ilin sənədlərində bir adı da "Turtun" olmaqla Naxçıvanın Dərələyəz nahiyəsində rast gəlirik [İrəvan əyalətinin icmal dəftəri, 1996, s. 59-60; Naxçıvan sancağının müfəssəl dəftəri, 1997,, s. 36]. Tur tayfa adındakı ub – "ev", "gənc", ikinci yazılışda isə tun – "ilk", "birinci" eləcə də "sakit", qədim türk sözləridir [Древнетюркский словарь, 1969, s. 586, 596, 619; Karşılaştırmalı Türk Lehceleri Sözlüğü, 1992, I, s. 228-229; Севортян, 1974, s. 561]. Bütün bu sözlərlə Turub məntəqə adının "Tur evi" mənası daşıdığını doğru hesab edirik.

**Turkavil.** 1727-ci ildə Naxçıvanın Qarabağ nahiyəsində bir adı da "Tuqavil" kimi yazılan [Naxçıvan sancağının müfəssəl dəftəri, 1997, s. 29] bu ad 16 məntəqədən biri idi. 1590-cı ildə isə burada cəmi 8 ad göstərilir [İrəvan əyalətinin icmal dəftəri, 1996, s. 166], digər adlar isə başqa nahiyələrdə qeydə alınmır. Ad Tur+kab+il şəklində kab/kav – "ölkə", il – "yurd", "vətən" sözləri ilə [Cəfərov, 2005, s. 45-47; Kaşğari 1985, III, s. 217] "Uca Tur yurdu" mənasında izah olunur.

## NƏTİCƏ

Bütün bu tarixi faktlara və etimoloji mənalara istinadən nəticə olaraq qeyd edə bilərik ki, antik müəlliflər Herodot, Strabon, Tit Livinin turd prototürkləri haqqındakı yazıları, eləcə də mənbə və tədqiqatlardakı etimoloji mənaların ümumi nəticəsi Tur-Turdi boylarının m. ö. IV minilliklərdən tarix səhnəsində olduğunu, öz adlarında mifoloji inancı da daşıdığını təsdiq edir. Tarixi müqayisəli təhlillər, bu tayfaların Naxçıvan-Naxər ölkəsinin yerli sakinləri olmaqla bərabər, Avropa və Asi-

yada belə tarixi hadisələrə nəzarət etdiklərini sübut edir. Finikiyada m.ö. IV minillikdə Tir, Egey dənizində Tira, m. ö. VI əsrdə Dnestr sahilində Tir, Alp ətəklərində Tiral, Aralıq dəniz adının Tirren kimi adları "mənşəyi məlum olmayan" (tərəfimizdən seçilib – F.R.) adlar olaraq izah edilsə də, onların Turdi boyları tərəfindən adlandırılması, həm mifoloji inanc, həm də tayfa adı olduğu danılmaz tarixi faktlar kimi özünü təqdim edir. Ukraynada Tor, Fransada Tur, Turen, Sibirdə Tura, Evenk Muxtar vilayətində Tura, Orta Asiyada Turan, Sverdlovsk əyalətində XVI əsrə qədər mövcud olmuş Turin və s. toponimik adlar Turdi boylarının xeyli sayda ərazilərdəki tarixi izləridir və onların geniş ərazilərə yayımının təsdiqidir.

## ƏDƏBİYYAT

Abdulkadr, İ. (1972). *Tarihte ve Bugün Şamanizm*. II Baskı. TTK Yayınları.

*Azərbaycan SSR-nin qısa toponimlər lüğəti*. (1986). ASE Baş redaksiyası.

Cəfərov, C. İ. (2005). *Milli etnik yaddaşın izi ilə*. Səda.

*Древнетюркский словарь*. (1969). Наука.

Дьяконов, И. М. (1990). *Люди города Ура*. Наука.

Gültekin, Q. (2001). *Azerbaycanın doğusundaki yer adları*. MOR.

İmanlı, A.K. (2011). *Onomastika məsələləri*. Məktəb.

*İrəvan əyalətinin icmal dəftəri*. (1996). Elm.

Иванов, М.С. (1952). *Очерки истории Ирана*. Гос. Политиздат.

*Karşılaştırmalı Türk Lehceleri Sözlüğü* (1 cild). (1992). Kültür Bakanlığı.

Kaşğari, M. (1985). *Divanü lüğat-it-türk* (1 cild). Türk Tarih Kurumu Basımevi.

Kaşğari, M. (1985). *Divanü lüğat-it-türk*. (2 cild). Türk Tarih Kurumu Basımevi.

Kaşğari, M. (1985). *Divanü lüğat-it-türk* (3 cild). Türk Tarih Kurumu Basımevi.

Qeybullayev, Q.A. (1994). *Azərbaycan türklərinin təşəkkülü tarixindən*. Azərnəşr.

Геродот. (1972). *История*. Пер. и примеч. Г.А Стратановского. Наука.

Ливий, Т. (1989). История от основания Рима / История античности (2 том). Правда.

Максимов, М. М. (1977). *Очерк о золоте*. Недра.

Малов, С. Е. (1954). *Уйгурский язык*. Изд. АН СССР.

*Малый атлас мира*. (1985). Картография ГУГК.

*Морской атлас Министерства Обороны СССР* (3 том). (1958). Главный штаб военно-морского флота.

*Naxçıvan sancağının müfəssəl dəftəri*. (1997). Sabah.

Oğuz, Y. & Tuncay, B. (2009). *Türkün gizli tarixi*. Apostrof.

Rahmeti, A. R. (1947). *Kutadgu Bilig* (1 cild). Metin.

Rəcəbov, Ə. Ə. və Məmmədov Y.İ. (1993). *Orxon-Yenisey abidələri*. Yazıçı.

Seyidov, M. M. (1983). *Azərbaycan mifik təfəkkürünün qaynaqları*. Yazıçı.

Севортян, Э. В. (1974). *Этимологический словарь тюркских языков* (1 том). Наука.

Советский союз Грузия. (1967). Мысль.

*Сравнительный словарь тунгусо-маньчжурских языков* (1 том). (1975). Наука.

Страбон. (1964). *География в 17 книгах*. Пер. статья и комментарий Г. А. Стратановского. Наука.

Тухмеев, Б. (2004). *Вопросы поэтики «Кутадгу-билик» Юсуфа Хас Хаджиба*. Фан.

*Всемирная история* (1 том). (1956). Госиздат.

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 13.01.2026**
**Son variant 19.02.2026**